*Qarabağ və Şərqi Zəngəzurun erməni işğalından azad edilməsi dünyada Azərbaycanın hərbi-siyasi gücünə münasibəti köklü şəkildə dəyişdi, şanlı Qələbə işğalın dondurulmasında maraqlı olan ermənipərəst dövlətlərin niyyətini puça çıxardı. Müzəffər ordumuzun qəhrəmanlığı, Vətən sevgisi, qisas və düşmənə nifrət hissi, döyüş peşəkarlığı ermənipərəst qüvvələrin yuxusunu qaçırdı və torpaqların azad edilməsi üçün ölümün gözünə dik baxan oğulların igidliyi düşmənə diz çökdürdü. Qədim yurd yerimiz Xankəndi son otuz il ərzində separatçıların, terrorçuların, dünyanın müxtəlif yerlərindən bura gətirilmiş cinayətkarların, çörəyi dizinin üstündə olan, xəyanətkar ermənilərin bayquş yuvasına çevrilmişdi.*




# Regionda tarixən mövcud olmuş təhsil mühiti canlanır

O şər yuvası dağıdıldı, xainlərin, nakəslərin, soysuzların bu torpaqlardan kökü birdəfəlik kəsildi. Azadlığına qovuşan Xankəndidə bərpa quruculuq uğurla davam etdirilir, qədim şəhərdən separatçı hayların izləri və nişanələri silinir, dağların sinəsinə sığınan şəhər öz görkəmi ilə bura gələn müsafirləri heyran edir, öz sahiblərinə qucaq açır. Xankəndi həm də elm, təhsil mərkəzinə çevrilir. Prezident İlham Əliyev "Qarabağ Universitetinin yaradılması haqqında" Sərəncam imzalayıb. Dövlət sənədində qeyd edilir ki, Qarabağ regionunda ali təhsil ənənəsi tarixən mövcud olmuşdur. Burada ilk ali təhsil ocağı 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi qurulmuş, 1973-cü ildən 1988-ci ilədək ali təhsil müəssisəsi kimi fəaliyyət göstərmiş, ərazilərimizin işğalı dövründə isə fəaliyyətini dayandırmışdır. Regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksək ixtisaslı kadr tələbatının ödənilməsi və tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılması məqsədilə Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində Qarabağ Universiteti publik hüquqi şəxs yaradılır.

Qeyd edək ki, Qarabağ Universitetinin yaradılması, yaxın perspektivdə bölgənin elm, təhsil və innovasiya mərkəzinə çevrilmək imkanlarını genişləndirəcək. Dünya dəyişir, qloballaşma, iqlim dəyişmələri, ərzaq qıtlığı təhlükəsi planetimizi təhdid edir, məhz dünyanı yeni və mükəmməl texnologiyalar, yüksək elmi nailiyyətlər bütün təhlükələrdən xilas edəcək. Təhsilin məzmununda 8 başlıca xüsusiyyəti (qlobal vətəndaşlıq vərdişləri, innovasiya və yaradıcılıq bacarıqları, texnologiya bacarıqları, fərdlərarası ünsiyyət bacarıqları, fərdlərə əsaslanan təhsil, əlçatan və inklüziv təhsil, problem əsaslı və birgə öyrənmə, ömür boyu və tələbə mərkəzli təhsil) özündə ehtiva edən yeni təhsil konsepsiyası müasir çağırışlara cavab verən, tam hazırlıqlı və rəqabətqabiliyyətli insan resurslarının formalaşdırılması, regionda yüksək keyfiyyətli təhsil modelinin qurulması baxımından faydalı istinad olaraq qəbul ediləbilər. Bölgənin inkişaf konsepsiyası elm, təhsil və innovasiya mərkəzi kimi Xankəndi yeni ali təhsil müəssisəsinin yaradılmasını labüd edir. Bu baxımdan, yeni yaradılan Qarabağ Universiteti bölgənin və şəhərin ictimai həyatında fəal rol oynamaq, sosial missiyası çərçivəsində əhəmiyyətli töhfələr vermək potensialına sahib olacaqdır. Təbii ki, yeni universitet təhsil və tədqiqat fəaliyyətləri ilə regional iqtisadiyyatın inkişafına, əmək məhsuldarlığının yüksəlməsinə töhfə verəcək, regionun elm və innovasiya potensialının inkişafında fəal iştirak edəcək. Burada söhbət ilk növbədə, texnologiyaların transferindən, texnoparkların, biznes-inkubatorların və ixtiraların patentləşdirilməsi sisteminin yaradılmasından, məsləhət xidmətlərinin göstərilməsindən gedir. Bundan başqa, yüksəkixtisaslı işçi qüvvəsini və gəncləri cəlb edən mərkəz kimi universitetin regionda məşğulluğun təmin edilməsindəki rolunu qeyd etmək olar. Belə ki, digər müəssisə və təşkilatlarla müqayisədə stabil məşğulluğu təmin edən universitet həm özündə, həm də müasir funksiyaları çərçivəsində formalaşdıracağı yeni qurumlarında iş yerləri yaratmaqla, məzunlarının regionda işə düzəlməsinə dəstək göstərməklə məşğulluq səviyyəsinin yüksəlməsinə töhfə verəcək. İlkin təhlillər göstərir ki, Qarabağın elm, təhsil və innovasiya mərkəzinə çevrilməsi üçün unikal şərtlər və real perspektivlər mövcuddur. Eyni zamanda bütövlükdə Qarabağda innovativ ekosistemin formalaşmasında və Xankəndinin sözügedən regionun iqtisadi inkişafının drayverinə çevrilməsində təhsil faktoru müstəsna əhəmiyyət kəsb edəcək. Qarabağ Universiteti yeni ali təhsil müəssisəsi olmaqla bərabər, həmçinin də güclü bir universitet brendi olacaq. Qarabağda elə bir ali təhsil müəssisəsi yaratmaq lazımdır ki, beynəlxalq sferada rəqabətə dayanıqlı ola bilsin. Bu səbəbdən, peşəkar professor-müəllim heyəti formalaşdırmaq, universitetin maddi-texniki bazasını ən son texnologiyalar əsasında qurmaq vacib məsələlərdəndir. Qarabağ Universitetində şəhid övladlarının ödənişsiz təhsil almaları təmin edilməli, həmçinin qazi övladlarına ödənişsiz təhsil almaq hüququ verilməlidir. Qarabağın təbliğatını aparmaq baxımından xarici ölkə vətəndaşlarının universitetə qəbulunun həyata keçirilməsi, həmçinin ali məktəbin həm kampusunun, həm də yataqxanasının olması əhəmiyyətli məsələlərdəndir. İnanırıq ki, yeni yaradılacaq universitet Qarabağın tarixinin, çoxəsrlik mədəniyyətinin, adət-ənənəsinin, müzəffər ordumuzun Vətən müharibəsində qazandığı şanlı qələbənin tədris edilməsində, bölgənin inkişafında, kadrların yetişdirilməsində mühüm əhəmiyyət kəsb edəcək.

Prezident, qalib Ali Baş Komandan İlham Əliyev bildirib ki, yeni yaradılan Qarabağ Universiteti, şübhəsiz, regionda tarixən mövcud olmuş təhsil mühitini çox yaxın vaxtda canlandıracaq. Ötən dövrün dolğun təhlilini apararaq təhsil sahəsində strateji məqsədlərə nail olmaq və Böyük Qayıdışa dair Birinci Dövlət Proqramında nəzərdə tutulmuş hədəflərə çatmaq əzmi ilə müzakirələr şəraitində mühüm qərarlar qəbul edəcəyinə və ölkənin intellektual potensialını təhsildə dayanıqlı inkişaf naminə sıx birləşdirəcəyinə əminəm. İnanıram ki, xalqımıza Zəfər sevinci yaşadan igid və qəhrəman övladlarımızın formalaşması naminə müstəsna əmək sərf etmiş fədakar müəllimlərimiz gənc nəslə bundan sonra da mükəmməl bilik verməklə yanaşı, onların milli-mənəvi dəyərlərə bağlılıq və azərbaycançılıq məfkurəsi ruhunda böyümələri üçün var qüvvə ilə çalışacaqlar.

Qarabağ Universitetindən bildirilib ki, təhsil ocağına I-IV ixtisas qrupları üzrə qəbul olan 980 tələbənin orta qəbul balı 467,6 təşkil edib. 2024-2025-ci tədris ili üzrə universitetin bakalavriat səviyyəsinə tələbə qəbulu planı, demək olar ki, tam dolub. I ixtisas qrupunda 6 ixtisas - riyaziyyat müəllimliyi, elektrik və elektronik, inşaat, kompüter, logistika və nəqliyyat texnologiyaları, mexatronika və robototexnika mühəndisliyi üzrə 290 nəfər tələbə qəbul olub. Bu qrupda orta qəbul balı 475,5 təşkil edib. Sözügedən qrup üzrə ən yüksək nəticə 659,9 balla riyaziyyat müəllimliyi ixtisasında qeydə alınıb. II ixtisas qrupunda universitetə 7 ixtisas - beynəlxalq ticarət və logistika, dövlət və bələdiyyə idarəetməsi, iqtisadiyyat, maliyyə, menecment, mühasibat, turizm işinin təşkili üzrə 330 nəfər tələbə qəbul olub. III ixtisas qrupunda 6 ixtisas- Azərbaycan dili və ədəbiyyatı, ibtidai sinif, xarici dil müəllimliyi (ingilis dili), beynəlxalq münasibətlər, hüquqşünaslıq, tarix üzrə 330 nəfər tələbə qəbul olub. Bu qrupda orta qəbul balı 531,3 təşkil edib. Sözügedən qrup üzrə ən yüksək nəticə 683,8 balla hüquqşünaslıq ixtisasında qeydə alınıb. Qeyd edək ki, 101 abituriyent 600 baldan yüksək nəticə göstərməklə qəbul olub. Ümumilikdə, ilk tədris ilində universitetin bakalavriat səviyyəsində 27 ixtisas üzrə kadr hazırlığı həyata keçiriləcək. Yardımlı rayonunun Bozayran kənd tam orta məktəbinin məzunu Səma Əzimli bu il ali məktəblərə qəbul imtahanında 625,9 bal toplayaraq Qarabağ Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub. Səma uşaqlıqdan hüquq üzrə təhsil almaq arzusu ilə yaşayıb. Əvvəlcə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına qəbul olmaq istəyən Səma Qarabağ Universitetinin yaranması ilə bu möhtəşəm təhsil müəssisəsində oxumağı qarşısına məqsəd qoyub.

Səma kimi yüzlərlə tələbənin arzuları çiçək açıb, onlar azad Xankəndidə elmin sirlərinə bələd olacaq, Qarabağın füsunkar təbiətindən zövq alacaq, Vətənə layiq övlad olacaqlar. İnanırıq ki, yeni universitet Qarabağın tarixinin, çoxəsrlik mədəniyyətinin, adət-ənənəsinin, müzəffər ordumuzun Vətən müharibəsində qazandığı şanlı qələbənin tədris edilməsində, bölgənin inkişafında, kadrların yetişdirilməsində mühüm əhəmiyyət kəsb edəcək.

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika.- 2024.- 28 avqust (№ 184).- S.10.